Şəfəq Nasir ötən əsrin 80-ci illərinin sonuna yaxın nəşr etdirdiyi "Gecə yağışı" hekayələr kitabına həm yaşadığı zamanın və mühitin ağrı-acılarını, ziddiyyətlərini kəskinləşmiş ictimai həyatın təzadlarını, mühitlə insan arasındakı qarşılıqlı münasibətin başa düşülən, düşülməyən tərəflərini, zamanın dəyişməyə doğru gedən təbiətinin həssas çırpıntılarını və eləcə də, özünün sevgi yaşantılarını, ehtiraslı yaradıcılıq duyğuları ilə uyğun gəlməyən mühitin "tələbatını", tənhalığını onu ovundura bilməyən sözünün can atımını, varlığına hakim kəsilən hisslərin azadlıq istəyini, adamların hansı səbəbdən ağlamağını, nə üçün gülməyini, sevincini, kədərini, bir sözlə, insan həyatının iztirablarını, mübarizəsinin görünən və görünməyən tərəflərini... əks etdirən hekayələrini toplayıb. Bu hekayələrin ayrı-ayrılıqda hər birində biz müəlliflərin çırpınan qəlbinin döyüntülərini hiss edirik. Bu döyüntülərin sözə verdiyi hərarəti, sözün canlanma, sözün diləgəlmə, sözün sanki insan kimi nəfəsalma məqamlarını yaratdığı obrazlarda hərəkətə gətirə bilir.

İndiyə qədər az-çox təhlilə çəkdiyimiz "Divarın o üzündə", "Yanğı", "İki yarpaq" hekayələrində olduğu kimi, "Güləndam" əsərində də bir insan ömrünün qalxan və enən bir insanın varlığında çağlayan həyat eşqinin alovlanmağını və eyni zamanda, bir insan ömründə enerji mənbəyi olan bu həyat eşqinin necə sönməyə doğru getdiyini, alovların yerində soyumuş ocaq külü təsiri bağışlayan amma hələ də bu külün altında az da olsa zəif, közərən qorları görürük. Maraqlıdır ki, Şəfəq Nasir bu ocaqları axıracan söndürmür. Sanki onda belə bir inam var ki, bu qorlar tezliklə əsəcək bir küləyin təsiri ilə hardasa təzə bir ocağa çevriləcək. Biz yeni alovlanmaların, yeni yanmaların şahidi olacağıq.

## ƏBƏDİ HƏYATIN VARİSLİYİ,

### *yaxud ölməyən duyğular, yaşayan hisslər*

"Güləndam" hekayəsində müəllif sanki "güzgü" effektindən istifadə edir. Bir tərəfdə biz həyatını bitirməkdə olan qoca qarını görürük, digər tərəfdə isə bu qarı həyat güzgüsündə özünün yeniyetməlik çağlarını, məhəbbətinin çiçək burnu tağındakı gözəlliyini əks etdirən yeni Güləndam kimi görünür.

Müəllif maraqlı, asosiativ mənzərə yaradır. İki Güləndam qarşı-qarşıyadır. Qocalıb əldən düşmüş, amma sevgisinin, məhəbbətinin sayəsində uzun ömrünün ən yaxşı çağlarını, əslində, təkcə özünün yox, həm də həyatın gözəlliyini, yaşamaq xoşbəxtliyini gözünün qabağındakı yeni Güləndamın sayəsində yaddaşına gətirə bilir. Nəvəsi Güləndamın gözəlliyi, yanaqlarının allığı, hərəkətlərindəki qaynarlıq, çeviklik az qala bir əsrə bərabər olan zamanın o biri tayına keçid üçün yol açır.

Qarı yaxşı bilir ki, indi onun düşüncələri kimsəyə lazım deyil, bir vaxt onun həyatının mənası olan, məhəbbətinin, sevgisinin dağı kimi boynuna baxıb qürurlandığı, həyatını birgə yaşadığı əri Aşırın ölümündən sonra onun nəyisə xatırlaması, nəyisə yaddaşına gətirməsi başqaları tərəfindən başa düşülən olmayacaq. Onlar qarının söhbətə gətirdiyi sözlərin müqabilində onun uşaqlaşdığını, ağlının getdiyini düşünəcəklər. Bəlkə, elə bu səbəbdən qarı öz düşüncələri, xatirələri ilə tək, tənhadır. Yaşamaq onun üçün ancaq xatirələrdən ibarətdir. Əlbəttə, o, bu xatirələri yaddaşının ən gözəl mənzərələri həyatının əvəzolunmaz duyğuları kimi gözlərinin önünə gətirir. Bu qarı sədaqətin, bu qarı məhəbbətlə yaşamağın, sevgi ilə ömür sürməyin, bir sözlə, başqaları tərəfindən görünə bilməyən, bəlkə də, çoxlarının qavraya bilmədiyi xoşbəxt həyatın timsalıdır. O, elə bir obrazdır ki, çoxları onun yaşadığı həyatın əlçatmazlığına can atar, o həyatı özü də yaşamaq istəyər. Amma həmin çoxlar, bəlkə də, hələ dərk eləməzlər ki, bunun da bir sonu var. Nə var-dövlət, nə sərvət, nə cavanlıq qüdrəti, məhəbbətin aşıb-daşan gücü, ehtirasların gözlərdə yanan işığı... bir sözlə, heç nə həyatı hərəkətdən saxlaya bilməz. Çünki dünyanın əbədiliyi fonunda, həyatın yaşarılığı fonunda hər bir insanın ayrılıqdakı ömrü bir andan ibarətdir. İndi, ömür yolunun sonuncu dağın dibinə gəlib çatmış qarı qocalığının tənhalığında - tənhalığının qocalığında həmin ömürdən son əmanətləri yaşamağının yavanlığına çevirir: "Həmişə qocasıyla soba qırağında gaplaşan qarı bu dəfə uzun qış gecələrini tənha keçirirdi. Bu payız xeyirliklə gəlmədi. Qoca Aşırını alıb apardı. Ürəyinin sözüylə, götür-qoyuyla təkcə qoydu Güləndamı". Güləndam yaşadığı xoşbəxt həyatın həsrətini nə qədər çəksə də xatirələrinin yavanlığı, yaddaşının hərəkətdə olması onu tənhalıq içində boğulmağa qoymur. Doğrudur, o, özündən əvvəl dünyasını dəyişmiş olan ərinin - yəni Aşırının yoxluğuna təəssüflənir. Və bu təəssüflənmənin təhəri içərisində boğula-boğula ömür-gün yoldaşının onun üçün sonuncu köməyini əsirgəməməyini necə qürurlu və kövrək duyğularla xatırlayır.

Güləndam həyatından xatırladığı bu çağlarla sanki müəllifin yozumunda yeni dünyanın insanlarına bir örnək, əmanət, bir yaddaş tapşırığı ötürür.

*(Davamı 13-cü səhifədə)*

# ƏBƏDİ HƏYATIN VARİSLİYİ,

## *yaxud ölməyən duyğular, yaşayan hisslər*

*(Əvvəli 12-ci səhifədə)*

Biləsən ki, bu gün-sabah həyatın bitir, başa çatır. Amma yenə özündən sonra qoyub getdiyin, bəlkə də, qoyub gedəcəyin həyatının bir hissəsinə son dəfə əlindən gələ bilən bir köməyi əsirgəməyəsən. Bu, həyatını böyük məhəbbətin şirinliyi altında yaşamış insanın sonuncu sədaqət borcudur. Şəfəq Nasir görün bu borcu öz oxucusuna necə təqdim edir: "Hələ yayın cırhacırında elə bil əcəl qulağına pıçıldamışdı. Qarısına deyirdi ki, bu qış yoldaşlıq eləyə bilməyəcəm, oğul-uşaq umuduna qoyacam səni. Odu ki, heçolmasa, bu qışda odununu bol eyləyəcəm. Lap Novruzdan o yana, köç vaxtınatan çatsın. Axşam-səhər yandır, elə bilərsən yenə yanındayam. Az qala bir dam dolusu odun çapıb-doğramış, özcə əllərinin səliqəsi ilə üst-üstə qalaqlamışdı". Şəfəqin hekayələrindəki bu canlılıq - məxsusi olaraq "Güləndam" hekayəsindəki bu müşahidə... Aşır kişinin öz həyatı haqqında qənaəti, yaxınlaşan ölümün nəfəsini duyması və bu duyğulanmalar müqabilində öz qarısı üçün əl-ayaq eləməyi, onu qayğılar içərisində qoymamaq üçün gördüyü işlər, ən başlıcası, öz Güləndamını qarşılayacağı qışda oğul-uşaq ümidinə buraxmamaq üçün çabaları çox həyatidir. Və bunu mən öz müşahidəmdə tam təsdiqini də görmüşəm.

...Atam ömrünün son çağlarında 57 il birgə ömür sürdüyü anama bəzi tapşırıqlar və məsləhətlət verirdi: "Əlin bixarç olsa, xalça-gəbəyə qızırğanma, sat, dəyərinə-dəymezinə. Daha hansı günün üçün saxlayacaqsan? Bilirəm, pul sarı bir çətinliyin olmaz. Birdən, hökümətdir, bəlkə, banklardan pul vermədi. Eyninə alma... elə et ki, uşağın, böyüyün yanında pulsuzluğun görünməsin". Nə qədər uyğun gələn mənzərədir. Belə məqamları müşahidə eləmək, həyatın dəyəri kimi qiymətləndirmək, yazıya gətirmək, əslində, yazıçılığın birinci missiyasıdır. Yazıçılıq həyatın ən dəyərli məqamlarını varislik naminə yeni nəsilə ötürməkdir. Bunun üçün üsul, vasitə, forma tapmaqdır. Eləcə də insanların bir ömürdə bitməyən həyata inamını qorumaqdır. Zaman keçdikcə insanlar dəyişir, düşüncələr dəyişir, dünya görüşləri dəyişir, amma həyat öz axarını heçnə ilə əvəzləmir. Əgər həyatın axarı boyu yaxşı olanlar unudulsaydı, yaxşı olanların dəyəri itsəydi, onda həyatın bir mənası da olmazdı.

Güləndam qarının həyatının timsalında insanların bir-birinə sədaqətinin dəyəri görünür. Və bu dəyərin fonunda biz ömrümüzün bitməyinə kədərlənmirik. Çünki, dərk edirik ki, bizdən qalan yaxşı əməllər kimlərinsə həyatında xatirə kimi yaşayacaq, kimlərinsə həyatında davam edəcək. Ömrünün yarım əsirdən də çoxunu, bəlkə, lap çoxunu birgə yaşadığı qoca Aşırın son məqamlarda Güləndama pıçıldadıqlarının nə qədər həyati olduğunu anlamaq üçün elə də fövqəl güc lazım deyil: "Qocanın dediyi kimi də oldu. Güləndam hər gün odunlardan qucaq-qucaq daşıyıb gətirdi. Oğlu-uşağa macal verməədi odunlara əl vursun. Aşırın bircə-bircə doğrayıb əliylə yığdığı odunlar təkcə Güləndamın əli ilə evə daşınırdı. Bu anmaq da bir təsəlli idi qarıya beləcə, odunların oduna qızına-qızına bir də gördü ki, hələ qırmızısı çəkilməyən yanaqlarına iliq, xoş yaz havası dəyir". Bu, Şəfəq Nasirin yazıçılıq gücüdür ki, ocağın istisindən qarının yanaqlarındakı allanmanı həyat eşqi anlamında verir. Bu, qoca Aşırın öz ömür-gün yoldaşına, bəlkə də, hələ öz canında tükənməyən enerjisindən ayırdığı paydır. İstər-istəməz oxucuda həyatının mənasını yaşamağının dəyərini öz sevgisində tapmış olan Güləndamın yaddaşının son işartıları ilə xatırladığı bu hekayət bir kədər ovqatı da yarada bilər. Və oxucu bunu az-çox öz canında hiss edir. Yəni mən də qocalacam, mənim də ömrümün sonu beləcə gələcək. Hardasa yazıçı intuisiyası ilə bu kədərin ümidsizliyə doğru gedəcəyini də anlayan yazıçı prosesə qəflətən yeni obraz daxil eləyir. Bu, Güləndamın "güzgü" effektində görünən əksidir. Yazıçı onu, yəni gənc Güləndamı qoca Güləndamla beləcə qarşılaşdırır. Biri həyatının son işartılarını yaşayır, digəri həyatının odlarına, alovlarına doğru can atır. Bu can atmaların mahiyyəti artıq oxucunu dirçəldir, onda həyatın davamlılığına inam yaradır. O, bu həyatın məhz bu cür davamlılıqda yaşarı olacağını qəbul edir. Və onun üzündən, gözlərindən, bütün varlığından gələn bir işıq, bir təbəssüm keçir: Mən ölmərəm, mən ölməzəm, mən yaşayaram. Elə gözlərimin qabağında olan həyatımın təzədən təkrarıdır.

Yusif Səmədoğlu deyirdi ki, mən belə düşünürəm, bəlkə də, insanın ən ümdə missiyası dünyaya gəlib, ağıllı yaşamağa çalışmaqla bərabər, özündən sonra nəsil verib getməyidir. Böyük yazıçının dediyinə rəğmən, insan elə bu missiya ilə yaşarıdır.

Şəfəq Nasirin "güzgü" effekti ilə ekrana gətirdiyi mənzərə oxucunun Güləndəm qarının həyatının bitməyinə təəssüfünü bir təskinliyə çevirir: "Güləndam evin içində fırfıra kimi fırlanır, aynanın qabağına keçib onsuz da sığallıtumarlı saçlarını əsdirə-əsdirə darayır, oyan-bu yana çönərək donunu sahmanlayır, yaxasını dartışdırırdı. Servantın gözlərini sürüşdürür, şkafın qapılarını taqqatuqla açıb-örtür, itiyi itmiş kimi nəyisə axtarırdı.

Qarı arabir səksənib, dik-dik dingildəyən nəvəsi Güləndama göz qoyurdu. Qızın səbirsiz-aramsız tap-şaplarının mürgüsünə haram qatdığını görüncə, dil tərpətdi:

- Mağıl tərpənsənə, a bala, izinə atlı düşməyib ha.

Huşu isə yel kimi illərin üstündən uçub yetmiş il əvvəlki yaz günlərini çözələməkdəydi". Necə maraqlı məqamdır. Qarı nəvəsi ilə bir otaqdadır. Başqa sözlə, eyni həyat qatarının əgər belə demək mümkünsə, eyni vaqonundadır. Biri həyatının üzü gələcəyinə şütüyür, digəri həyatının sonuna və elə burada da bir mübarizə effekti var. Qarı istəyir ki, nəvəsi bir az sakit davransın, onun düşüncələrinə mane olmasın. Halbuki, Güləndamın bu davranışları olmasa, qarının da düşüncələri hərəkətə gəlməz. Qarı onun davranışları ilə öz düşüncələrinin düyününü aşır, yaddaşını təzələyir. Xatirələrinin aləminə getmək üçün güc alır. Gənc Güləndamın narahat vurnuxmaları onun yaddaşına həmin gecəni gətirir. O gecəni ki, onu sevgilisi Aşıra vermək istəmirdilər. O, nəzarət bəndlərini dağıdıb özünü onu gözləyən, sevgilisi Aşırın qucağına atmışdı. Həmin gecənin qaranlığındakı aydınlıq ona bütün bir ömrü sevgi ilə, məhəbbətlə yaşamaq üçün bəs eləmişdi. Bu yaylaq köçü zamanında olmuşdu.

Şəfəq Nasirin etnoqrafik müşahidələri dövrün koloritini vermək baxımından istifadə elədiyi arxaik ifadələr, artıq uzaq keçmişdə qalan həyat tərzi birərbirər Güləndam qarının yaddaşında təzələnir. Və biz həmin mühiti olduğu kimi təsəvvür edə bilirik: "Arabaçılar da əl-ayağa düşmüşdülər. Təkərləri şinləyir, cağları bərkidir, qolları çüyləyir, oxları yağlayırdılar. Xülasə, bütün əyər-əskiyini düzəldib, saz hala gətirirdilər. Arabanın içərisində qız-gəlinlərin toxuduğu klimlərin siftəsini salırdılar". Yaylaq kökünün özünəməxsus tərzi, adamların birlik əhvalı, insanların qərəzsizliyi, etnosun tarixi ənənəyə güvənci hekayənin bu yerində çox şirin, oxunaqlı bir dillə təsvir olunur. Güləndam qarı xatirələrinin şirinliyində xumarlanmaqda, amma evin içində nəvə Güləndamı vurnuxmağında qarıdan olsa, qapı-pəncərəni bağlayar, evin içində tək oturar. Amma təki bir kimsə onun fikrinə mane olmasın. Amma onu da anlayır ki, nəvə Güləndamsız o, bu düşüncələri çətin ki, yaşaya bilsin. Nəvə Güləndam evin içindəki hərəkəti ilə qarının düşüncələrinə mane olur, həm də onun düşüncələrinə yol açır: "Güləndam evin içində qatlama nərdivanı açıb pişik kimi taxtapuşa dırmaşdı. Orda bir xeyli vurnuxdu. Aşağı enəndə qucağından nəsə bərk bir şey tappıltı ilə yerə düşdü.

Qarı diksinib gözlərini açdı.

-A bala, sabahdan gəzdiyin nədi, desən?

Əlin bişibdimi, bu evdə sağ-islahat bir şey qoymadın.

Güləndam həyəcan-səksəkədə əlindəkini sinəsinə sıxıb yandakı otağa keçdi. Sözünü ordan dedi:

- Sən bilməzsən, ay nənə, ayrı şeydi, neynirsən...

Qarını huş apardı". İki Güləndamın arasındakı dialoqun yaratdığı təəssürat müxtəlif oxucu zümrələri tərəfindən müxtəlif cür qavranıla bilər. Amma bizə elə gəlir ki, hekayənin bu məqamında tarixən mövcud olan "atalar-oğullar" problemi ilə yanaşı gedən analar-qızlar, nənələr-nəvələr problemini qoyub. Bu problemi oxucunun qavraması üçün dəqiq işarə də verib: "Sən bizməzsən, ay nənə, ayrı şeydi, neynirsən..." Bu cümləni təkrar etməkdə məqsəd odur ki, hətta diqqətli olmayan oxucu belə görsün ki, nənə ilə nəvənin arasında az qala görünəcək dərəcədə düşüncə, dünyagörüşü fərqi var. Bütün bu fərqlərə baxmayaraq, nəvənin unutduğu bir məsələ var; bu da ondan ibarətdir ki, nəvə nənəyə yaşadığı həyəcanların heç ümumiyyətlə, məlum olmadığını düşünür. Unudur ki, nəvənin indi yaşadığı həyəcanları nənə az qala yarım əsrdən də o tərəfə çoxdan yaşayıb keçib.

Nənə nəvənin "dünyadan xəbərsiz" olmağına işarə edərək öz işindədir. Yəni məqsədinə, məramına doğru çabalarındadır. Nəvənin "sən bilməzsən" sözünün davamına nənənin hansı düşüncələri oyanır? Nənə vaxtilə hörmətli olan Hacı Bayram adlı nüfuzlu kişinin qızıdır. Aşır da indiki nənə olan, o vaxtkı gənc Güləndama aşiqlənib. Amma Hacı Bayram onu öz ailəsinə, evinə yaraşdırmır. Ona görə də "yox" cavabı alan gənc Aşır məqsədində israrlıdır, qətiyyən geri durmaq fikri yoxdur. Və Güləndamla vədələşir... Eşqin, həqiqi sevgi inamının sayəsində Güləndam atasının da, anasının da, doğmalarının da - hamısının etirazının üstündən keçir və o, öz taleyini Aşıra ümidləyir. Beləliklə, Güləndam sevgisinin iradəsinə uyğun olaraq ata-ana mühitindən imtina edir. Onun bu iradəsi, bu dəyanəti, bəlkə də, zamanında kimlərinsə kəskin etirazı ilə qarşılanır. O, bundan peşman deyil.

Həqiqətən, doğru sözdür ki, deyirlər; zaman hər şeyin məlhəmidir. Güləndam sevgilisi Aşırla ağrılı bir mərhələdən keçir, qınaqla keçir. Ancaq son nəticədə bütün mühitinə diktə edir ki, inamla atılan addım, ən başlıcası, qarşılıqlı inamla atılan addım son nəticədə bütün arzu və diləklərin göyərməsinə, bitməsinə şərait yaradır, münbit mühit olur. Uzun illər Güləndam Aşırla sevgili bir həyat yaşayır. Müəllif bu sevgili həyatın mahiyyətini çox qəribə, belə, insanda romantik hisslər oyadacaq bir təsvirlə oxucusunun diqqətinə çatdırır: "Ulduzlar tək-tək itib-batırdı. Ləlvərin başı üstündə gecənin əl-ayağı yığışırdı. Dəyələr qaralırdı. İndilərdə dan yeri söküləcəkdi. Aşır Sarıtelin yüyənindən çəkəçəkə sal daşların arasıyla atı araba yoluna dartdı. Güləndamı qucağına basıb atın yanına yüngülcə qamçı çəkdi. At üzü aşağı götürüldü". Buradakı təsvir dəqiqliyi, qızın qaçılırma məqamı, ən başlıcası, yer-yurd adının ünvan kimi göstərilməyi, bir sözlə, hətta atın adına istinad qədim türk təfəkküründəngəlmə düşüncə tərzi - bütün bunlar Şəfəqin yazıçı kimi sözdən bacarıqla istifadə imkanlarından xəbər verir. Hətta burada belə bir cümlə də işlədir: "Aşır Hacı Bayram qızı Güləndamı yaylağa düşdüyü ilk gecəsində götürüb qaçıb..."

Müəllifin buradakı "tumugödək" ifadəsi də düşündürücüdür. Bütün hallarda Aşırın mərdliyi, sevgisi uğrunda dönməzliyi "tumugödək" ifadəsinin qabağında daha qabarıq göstərir. Nə isə...

Bütün bu yaddaş xatırlamalarının fonunda qarının "Eh, ay dünya, ay dünya, illər nə tez üstələdi bizi..." təəssüfü çox təbii səslənir.

Vəziyyət elə gətirir ki, qarının bu dünya üçün təəssüfləndiyi məqamda biz təzə Güləndamın - nəvə Güləndamın vurnuxmalarının mahiyyətini görürük. İndi Sarıtel at yoxdur, indi zaman dəyişib və Güləndam qarının nəvəsi Güləndam dünən atasının evinə gələn elçilərə "yox" deyən doğmalarının etirazını öz üsyanı ilə qurtarır. Təzə Güləndam - "güzgü effekti"ndəki Güləndam artıq öz məramını, öz yolunu seçib. Və o, əgər belə demək mümkünsə (əsərdə onun adı yoxdur), öz Aşırının istəyinə uyğun qapıdan yox, pəncərədən keçib gedir. Onu həyət qapısından o tərəfdə maşın gözləyirdi. Təbii ki, cansız maşın yox, içindəki yeni dünyanın Aşırı gözləyirdi. Ana hay-küy salır, qızının qaçmağını nənəyə xəbər verir: "Güləndam qarının həyəcandan ürəyi döyündü. Əl-ayağı titrəməyə başladı. Gözlərində yaş damlası halqalandı. Kirpiləri nəmləndi: "Deyirəm, bəs sabahdan bu qız niyə özündəsözündə deyil, bir ucdan salıb sındırır, yel kimi ora keçir, bura keçir..." Bir anlıq hər şeyi unutdu qarı. Ona elə gəldi ki, on beş yaşındadı. O vaxtki şirin, narahat əsməcənin içindədi. Dəyədə özünü yuxuluğa vurub, bayırı dinşəyir. Aşırın hənirinə, işarəsinə bənddi... Dünyanın işinə bir bax, Güləndam qarılığında bahar ömrünü təzədən yaşayırdı". Bəli, bu da maraqlı bir həyatın yeni davamı. Və insan bir daha inanır; əbədi həyatın varisliyinə, ölməyən həyatın, yaşayan hisslərin, həm də bu dünyamızı yaşatmaq gücünə!..

*Əli Rza XƏLƏFLİ*
*22.07.2020*